# "Şairlərdənsə parklardakı bomjlar maraqlıdır"

*Gürcüstanda yaşayan gənc şair Coşqun Cəfərlə çoxdandı söhbətləşmək istəyirdim. Nəhayət Coşqun bəylə görüşə bildim. Onunla öz yaradıcılığı, Tiflis ədəbi mühiti, ədəbiyyat və bir sıra digər məsələlər haqqında söhbət etdik.*

*Cəsarətli və özünəməxsus açıqlamalardan ibarət bu müsahibəni Adalet.az sizlərə təqdim edir:*

**- Əvvəl başlayaq burdan ki, Coşqun Cəfər kimdir?**

- İlk baxışdan sadə səslənsə də, fəlsəfi mənada bu sual bəlkə, dünyanın ən çətin suallarından biridir. İnsan mən kiməm sualına heç vaxt tam dolğun cavab verə bilmir. Amma bilirəm ki, sən bu mənada soruşmursan. Mən heç kim. 26 yaşlı bir gənc. Hamı kimi ideyaları, arzuları, xəyalları olan bir gənc... Gürcüstanda dünyaya gəlmişəm. 4 il İranda yaşamışam, təhsil almışam. İndi Tiflisdə təhsilimi davam etdirirəm, oxuyuram, yazıram...

**- Necə oldu ki, ədəbiyyata marağınız yarandı?**

- Sartr deyir ki, insan azadlığa məhkumdur! Bunu anlamağa başlayandan anladım; ədəbiyyat bəlkə də yeganə sahədir ki, burda insan maksimum azaddır. İstədiyini edə bilirsən. Reallıqda utopik və illüzion görsənən hər şey asanlıqla əlinin altında olur. Reallıqda dağın başına qaldırılmış istənilən diktatoru yerin dibinə soxmaq, istənilən ölkələri, xalqları, mədəniyyətləri barışdırmaq, istənilən gücə savaş açmaq şansın var. Deyilə bilər ki, hə, nə olsun, bu xəyaldan o tərəfə keçmir. Xeyr, elə deyil. Bir ideya, fikir ilk əvvəl xəyal kimi bizim şüurumuzda təşəkkül tapır, formalaşır, sonra onu reallaşdırmağın kodları, yolları aşkarlanır. Məsələn, uçan xalça xəyalı insanları təyyarə yaratmağa, sehrli güzgü təxəyyülü insanları televizoru kəşf etməyə gətirib çıxardı. Bəlkə də Eynşteyn buna görə deyirdi ki, hər şey xəyal gücündən asılıdır. Bu mənada incəsənətlə elm bir-birinə yad yox, qohumdur. Ədəbiyyat təxəyyülün, təfəkkürün, ideyanın sərhədsiz, polissiz, sənədsiz, təhlükəsiz, azad gəzib dolaşdığı, fırlandığı yeganə ünvandır. Ədəbiyyat yalnız hər hansı bir situasiyaya diaqnoz, real təsvir deyil, həm də onu dəyişmək, inkişaf, islah etmək üçün insan şüurunda yerləşən laboratoriyadır. Ədəbiyyatın bu özəlliyi, bu xarakteristikası məni bu vadiyə bağlamaq üçün kifayətdir.

**- Sizi yazmağa vadar edən nədir?**

- İndi mən sizə oturub göylərdən, ilham pərisindən, mələklərdən, kosmosdan danışmayacam. Bu söhbətlərlə, bu cəfəngiyatla yalnız falçıya, cinə inanan toplumun başını qatmaq olar. Hər dövrün əyri-əskikliklərini, mənəvi, sosial, siyasi, psixoloji ab-havasını bütün çılpaqlığı ilə yaddaşlara məhz ədəbiyyat köçürür. Bəlkə də ədəbiyyatın, ümumiyyətlə incəsənətin ən müqəddəs missiyası elə bu olardı; hamının görmədiyi, yaxud görmək istəmədiyi və ya kimlərinsə ört basdır etdiyi həqiqətləri sənədləşdirmək...

**- Tiflisdə, dəmiryolunun kənarında uzanmış bir it...**
**Yarı diri, yarı ölüdür.**
**Necə ildi su ilə küsülüdür.**
**Üstü başı bit.**
**Hamı tanıyır o iti.**
**Kimsəsizliyin fotoportreti -**
**Coşqun bəy, o it yaşayırmı?**

- Ölkənin mənəvi, sosial, siyasi durumunu o it öz varlığı, baxışları, hürməsi ilə daha çox ifadə, təsvir edir, nəinki Borçalının gopçu şairləri, yazıçıları, jurnalistləri, ziyalıları. Bəli yaşayır. O it heyvanların kefli İsgəndəridir. Ən yaxşı həmdərd, həmsöhbət, ən vəfalı dostdur. Ölkə, Tiflis haqqında ən doğru və dolğun informasiyaları sosial şəbəkələrdən, qəzetlərdən yox, o itdən soruşmaq lazımdır. Tiflis bir Əshabi-Kəhv mağarası, o it həqiqət keşişçisidir.

**- Şeirlərinizi sərbəstdə yazırsız. Xəmiri qoşmayla, hecayla yoğrulan Borçalılar üçün bu şeirlər yad deyil ki?**

- Bu mənə maraqlı deyil. Olmamalıdır da! Onsuz da bütün doğmalar əvvəlcə yad olub.

Mənim iki il-üç il öncə şeirlərimi Tiflisdə - belə də şeirmi olar?- deyib qəbullanmayalar indi yalnız belə şeirlər oxuyur, dinləyir, sevir, sevgilisinə yazır... (gülür).

Birdə ki, sərbəst, heca-filan bölgülərinin hamısı şərtidir. Bu ədəbiyyatşünasların bölgüsüdür, fırıldağıdır. Mənim üçün sərbəst şeir anlayışı tam fərqlidir. Hər kəsin öz nəfəsi, sözə yanaşması, sözə üfürdüyü musiqi olur, sərbəstlik də bunlarla ölçülür. Məsələn, bu gün çağdaşlardan heca təyinatı ilə yarliklənən şeirlər var ki, sovet dövründə Leninə, Stalinə, diktatorlara yazılan sərbəst şeirlərdən, poemalardan daha çox sərbəstdir. Məncə, sərbəstlik sözlərin düzülüşündə yox, mahiyyətində, doqmalardan, ideologiyalardan, yalanlardan azad, sərbəst olmasındadır.

Bir dəfə ədəbiyyat jurnallarının birində Tiflis şeirim çıxmışdı. Dostum onu evdə anasına göstərib. Anası da oxuyub deyib ki, belə də şeirmi olar, hanı bunun bəndləri, qafiyə sistemi niyə belədir falan    Dostum da götürüb öz səsi, şeiri mən ona daha əvvəl oxuduğum intonasiya ilə anasına oxuyub. Anası da deyib ki, həəəə, şeir belə daha yaxşıdır, daxili musiqi, ritm belə daha gözəl səslənir. O gün özüm üçün çözdüm ki, poeziya təkcə söz deyil, o həm də səsdir. Poeziyanın dəyəri də, sərbəstliyi də bu səsi sözün necə ifa etməsində, zümzüməsindədir. Poeziya sözlə səsin sevgi ilə baş tutan nigahından doğulur...

**- Bakıdakı ədəbi prosesləri izləyirsinizmi? İlk şeirləriniz harda çap olunub?**

- 2009-2010-cu illəri Bakıda olmuşam. Əlmdar Mahirin ədəbi məclisləri, əruzçulardan tutmuş, "Pərvanə", "Gənc ədiblər məktəbi"nin ədəbi görüşləri, AYO-nun tədbirləri, AFU-nun konfranslarının yaxından iştirakçısı olmuşam. İlk dəfə şeirlərimi Murad Köhnəqala "Proloq" qəzetində çap edib.

**- Tiflisdə yaşayırsız, üstəlik oxuyursuz da. Gürcü ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatı arasında müqayisə aparmaq maraqlı olardı.**

- Azərbaycan ədəbiyyatında istər şeir, istər nəsr, istər klassik, istər çağdaş - elə bir ciddi ədəbi nümunə olmayıb ki, oxumayam. Bu gün də oxuyuram... Amma gürcü ədəbiyyatına hələ təzə-təzə keçid etmişəm.. İran ədəbiyyatını gürcü ədəbiyyatından daha çox bilirəm. Gürcüstanda doğulsam



da, 4-5 il İranda olmağım gürcü ədəbiyyatını yaxından izləməyimə bir az mane olmuşdu.Təzə-təzə müqayisə aparacaq qədər təsəvvürlərim formalaşıb    .Amma bu sual özü geniş bir söhbətin mövzusudur. Burda qısa danışmaq heyfdir (gülür). Qismət olsa bir gün bu barədə xüsusi olaraq uzun-uzun danışarıq...

**- Publisistikanız da var. Tənqidi. Özü də olduqca sərt. Sosial şəbəkələrdə sizi söyürlər, təhdid edirlər. Bu tənqid hansı zərurətdən yarandı. Borçalılardan nə istəyirsiniz?**

- Burdan, o əlinə yaba, dırmıq, dəhrə götürüb ünvanımıza "Kamaz" dolusu söyüş yağdıranlara demək istəyərdim: Borçalını tənqid edərək dəyişmək, abadlaşdırmaq istəyən bizlər bu torpağı çox sevirik, yoxsa komfort həyat, hündür villalar, dadlı təamlar üçün vətəndən gedib rus qızlarının ayağının altını özünə vətən edən, "unutmaq olarmı Borçalımızı" mahnısına toylarda hoppanıb düşənlər?

Bu tənqidlərin hamısı Borçalıya, borçalılara aşırı, çılğın sevgidən doğur, yaranır. Sevdiyimizi qorumaq cəhdləridir o tənqidi yazıların hamısı.

**- "Renessans" necə gedir?**

- Razılaşarsan ki, hər yenidən doğulma çox ağrılı olur. Bu uzun bir prosesdir. Amma əsas odur ki, proses gedir, hər şeyə, hamıya, bütün manelərə rəğmən ayaqdayıq. Yazırıq. Hələ ki, 9 aylıq ana bətnindəyik, bütün var gücləri ilə çalışanlar var ki, doğulmayaq, "abort" etdirmək istəyənlər, bətndəcə "zəhərləmək" işinə girişənlər    Artıq bətndəcə öldüyümüzü düşünənlər    Amma biz tez-tez əllərimizi tərpədirik. Çoxluq bu doğuşa qarşı olsa da mütləq olacaq. Olmalıdır. Çünk bu doğuş tarixi-mədəni zərurətdir. Renessans qaçılmazdır.

Tiflisdə maraqlı ədəbi mühit var. Təzə-təzə formalaşmağa başlasa da, əskikliklər olsa da ümid hər şeydən çoxdur.

Tiflis bir neçə dinin, dilin, mədəniyyətin, sivilizasiyanın toqquşduğu, qovuşduğu bir vadidir. Məncə, ədəbiyyat da məhz bu müxtəlif sivilizasiyaların bir-birinə qarşılıqlı təsirindən yaranır. Biz ədəbiyyat üçün ən uyğun şəraitə malik olan bu müqəddəs vadidə oxumaqla, öyrənməklə, mütaliə etməklə və ən əsası yazmaqla, yazmaqla, yazmaqla məşğuluq. Qığılcım varsa partlayış mütləq olacaq...

**- Müasir Azərbaycan poeziyasında kimləri daha çox sevirsiniz?**

- Müasir Azərbaycan poeziyasında demək olar ki, çap, dərc olunan hamını oxuyuram, izləyirəm. İstər internetdə olsun, istərsə də tez-tez Bakıya gedib yeni çıxan kitabları alıram. Başda siz olmaqla hər yaxşı şairdən ən azı iki şeir sevir və əzbərə də bilirəm. Başqa adlar çəkməyə ehtiyac yoxdur buna görə ki, öz yaradıcı dünyamı başqaları istər şair olsun, istər yazar doldurmaq, onları özümə yaxın buraxmaq istəmirəm. Buna görə də özümü iki yerə bölmüşəm; mütaliyə və boş vaxtlarım, bir də yazı prosesinə aludə olduğum vaxtlar. Mən başqa şairləri yalnız boş vaxtlarımda sevirəm. İkincidə bir dənə də sevdiyim şair, yazıçı yoxdur, olmamalıdır da. Ya ümumiyyətlə yazmamalısan ya da, yazanda bu iddia ilə yazmalısan ki, yer üzündə yazan bir tək sənsən, obrazlarınla yalnız sən danışırsan, metaforalarını obrazlarının əyninə yalnız sən biçirsən, geydirirsən və s. Axı bir şairi, ümumiyyətlə hər nəyi sevsək, könül versək o bizə müəyyən mənada hopur. Yaradıcılığımı başqa şairlərin səsi, sözü, obrazı, iti, pişiyi, ayaqqabı izi ilə doldurmaq istəmirəm. Şairlərdənsə parklardakı bomjlar maraqlıdır, ya da pablardakı pivə satanlar... Metro çıxışında qəzet satanlar... Küçədə ara-sıra rastlaşdığımız, tanımadığımız amma daha tanış və doğma mövzulardan, hisslərdən danışan naməlum talelilər

**- Klassik ədəbiyyat yoxsa postmodernizm?**

- Klassik ədəbiyyat klassik ədəbiyyat kimi artıq maraqsızdır. Amma ona postmodern ədəbi yanaşmalar, postmodern ədəbi estetka və meyarlarla hücum edəndə o maraq və dəyər qazanır.

Yox əgər iminna ayrı ayrılıqda birini seçməliyəmsə onda hətda klassizmə də öz qoynunda sığınacaq verən posmodernizm.

**- Kənd, yoxsa şəhər?**

- Ədəbiyyatda məkanı kəndə şəhərə bölmək nə dərəcədə doğrudur blmirəm. Axı elə qalaq-qalaq şəhər ədəbiyyatı var bir kiçik kəndi təsvir edən mətnin qarşısında dizləri qatlanır. Və yaxud əksinə.

Məncə bu yazandan asılıdır ki, o mövzuya, obraza hansı ədəbi təxəyyül, hissiyat və yanaşmalarla yanaşır.

Birdə əlbətdə baxır hansı kənd və hansı şəhər(-gülür).

Məsələn, elə şəhərlər var ki, sənətin ömür billah düşmənidir, yazmağa, yaratmağa heç bir mövzu vermir, impuls vermir, ruhu yoxdur, adi havası belə bulanlıqdır. Belə şəhərdənsə kənd əlbətdəki. Təmiz, saf, sadəlövh adamları, mövzuları, obrazları, hadisələri, adi məişət qayğıları ilə kənd.

Amma söhbət Tiflisdən gedirsə şəhər. Tiflis kimi kasıb, elə də hündür binaları olmayan, boyu balaca amma ürəyi geniş, hər rəngdə, hər dində, hər mədəniyyətdə olan adamlara öz balacalığında yer, sığınacaq verən Tiflis...

**- Hansı kitabları oxuyursan və gələcək yaradıcılıq planların?**

- Palaz-palaz kitab adları çəkib boyumdan böyük görünməyə çalışmayım. Mirzə Cəlilin Tiflisdə gəzən müqəddəs ruhundan ayıbdır. Onsuz da ciddi yaradıcılıqla məşğul olmaq üçün özündən əvvəlki bütün dövrləri, fəlsəfi məktəbləri, ədəbi cərəyanları, mədəniyyətləri, epoxaları xronoloji olaraq maksimum oxumalı, bilməli, öyrənməlisən.

Mütaliə sağalmasını heç vaxt istəmədiyim yeganə xəstəliyimdir.

Əlimiz çatan ən yeni tərcümələri, nəşrləri də oxuyuruq.

Planlara gəlincə bu il qəzet, jurnal, facebook, internet səhifələrində avaraçılıqla məşğul olan şerlərimə bir ev tikib, evləndirib, qız alıb gəlin köçürmək arzusundayam(gülür). 2017-nin sonu şeirlər kitabım çıxacaq.

**Oğuz Ayvaz**